

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qiblǝgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 214 (21.115)

8 noyabr 2014-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan Muxtar Respublikası Ali Məclisində orden, medal və fəxri adların təqdimat mərasimi keçirilmişdir





Noyabrın 7-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün, "Şöhrət" ordeninin, "Tərəqqi", "İgidliyə görə" və "Hərbi xidmətlərə görə" medallarının, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarının döş nişanlarının və vəsiqələrinin təqdimat mərasimi keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov təltif olunanları təbrik edərək demişdir: "Hər bir ölkənin inkişafında onun insanlarının rolu əvəzsizdir. Əgər bir ölkədə sabitliyin təminatçısı dövlətdirsə, inkişafın da hərəkətverici qüvvəsi onun insanlarıdır. O ölkə inkişaf edir ki, orada sabitlik, inkişaf və bu inkişafın qarantı olan vətənpərvər insanlar vardır. Bu gün Azərbaycandakı sabitlik, sosial-iqtisadi inkişaf, həyata keçirilən tədbirlər ölkəmizin etibarlı gələcəyindən xəbər verir".

Ali Məclisin Sədri demişdir: "Azərbaycanda müxtəlif sahələri əhatə edən dövlət mükafatları təsis olunmuşdur. Fəaliyyətləri ilə seçilən, ölkəmizə və xalqımıza ləyaqətlə xidmət edən şəxslər bu mükafatlara layiq görülürlər. Bu gün təltif olunanlar da müxtəlif sahələrdə öz əməkləri ilə nümunə göstərən, fərqlənən insanlardır".



Ali Məclisin Sədri nümunəvi fəaliyyət göstərdiklərinə görə təltif olunanlara təşəkkürünü bildirmişdir.

Sonra Ali Məclisin Sədri Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünü, medalların, Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası fəxri adlarının döş nişanlarını və vəsiqələrini təqdim etmişdir.

Təltif olunanlardan İbad Əliyev, Qəmər Əliyeva, Xalidə Sadiqova, Valeh Seyidov, Kamil Abbasov, Yarməmməd Qafarov, Gülarə Abbasova, Rzaqulu Həsənov, Valeh Vəliyev, Almas Abbasova, Dezdemona Abdullayeva, Aidə Allahverdiyeva, Fatma Allahverdiyeva, Zemfira Babayeva, Süreyya Ələkbərova, Nəzirə Əliyeva, Mehriban Həsənova və Kamaləddin İsmayılov minnətdarlıq edərək demişlər ki, bu gün ölkəmizdə bütün sahələrin inkişafına qayğı göstərilir. Yaradılan müasir infrastruktur, əhalinin rifahının yaxşılaşdırılması sahəsində görülən işlər sakinlər tərəfindən qürur hissi ilə qarşılanır. Bu inkişaf və tərəqqi insanların qurub-yaratmaq əzmini artırır, onların daha səylə çalışmasına stimul verir. Çəkilən zəhmətin dövlətimiz tərəfindən qiymətləndirilməsi isə qarşıya daha mühüm vəzifələr qoyur.

Təltif olunanlar bundan sonrakı fəaliyyətlərində də ümummilli liderimiz Heydər Əliyevin siyasi xəttinə sadiq qalacaqlarını, vətənpərvər ardıcıllar yetişdirəcəklərini, ölkəmizin, eləcə də muxtar respublikanın inkişafında yaxından iştirak edəcəklərini bildirmişlər.

Sonda Ali Məclisin Sədri təltif olunanları qarşıdan gələn Dövlət Bayrağı Günü münasibətilə təbrik etmiş, onlara gələcək işlərində uğurlar arzulamışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Dövlət Bayrağı Günü qeyd olunub



***"Elə bir adam ola bilməz ki, mənsub olduğu dövlətinin bayrağını görüb qəlbində qürur, mənliyində iftixar, heysiyyətində öyüncəklik hiss etməsin. Bu mənada bayraq ucalıqdır, milli heysiyyətdir, vətəndaşlıq qürurudur. Bayraq millət, dövlət, milli mənlik deməkdir".***

Bu fikirlər noyabrın 7-də AMEA Naxçıvan Bölməsində Dövlət Bayrağı Gününə həsr olunan tədbirdə səsləndirilib. Yeni Azərbaycan Partiyası (YAP) Naxçıvan Şəhər Təşkilatı və YAP AMEA Naxçıvan Bölməsi müəssisədənkənar ərazi ilk təşkilatının birgə təşkil etdiyi tədbiri AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev açıb.

Tədbirdə YAP AMEA Naxçıvan Bölməsi müəssisədənkənar ərazi ilk təşkilatının sədri, filologiya üzrə fəlsəfə doktoru, dosent Ramiz Qasımovun "Ulu öndər Heydər Əliyevlə ucalan bayrağımız", YAP Naxçıvan Şəhər Təşkilatının sədri, tarix üzrə fəlsəfə doktoru, dosent Elman Cəfərlinin "Naxçıvan Muxtar Respublikasının dövlət bayraqları", AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyevin "Bayrağımız müstəqilliyimizin rəmzidir" mövzularında məruzələri dinlənilib.

Vurğulanıb ki, milli ideologiyamızın və müstəqilliyimizin banisi olan ulu öndər Heydər Əliyevin dövlətçilik yolu dünyaya bir Günəş kimi doğan, günü-gündən möhtəşəm nailiyyətlər qazanan müstəqil Azərbaycan Respublikasının idarəçilik yolu, siyasi kursu və dövlətçilik fəlsəfəsi kimi uğurla davam etdirilir. Bu baxımdan dövlət rəmzlərimizin təbliği və uca tutulması istiqamətində görülən tədbirlərin davamı olaraq, ölkə Prezidenti cənab İlham Əliyevin Azərbaycan Respublikasının Dövlət Bayrağı Gününün təsis edilməsi, habelə Bakıda Dövlət Bayrağı Meydanının yaradılması haqqında sərəncamları xüsusi minnətdarlıq doğurur.

Diqqətə çatdırılıb ki, Naxçıvan Muxtar Respublikasında da dövlət atributlarının təbliği istiqamətində xeyli iş görülüb. Belə ki, "Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyinin yaradılması haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 22 avqust 2014-cü il tarixli Sərəncamı ilə milli dövlətçilik və mədəniyyətimizin beşiyi, müstəqillik və dövlətçilik uğrunda ilk fəaliyyətin vətəni, paytaxtı olan Naxçıvan şəhərinin ən hündür guşəsində Dövlət Bayrağı Meydanı və Muzeyinin yaradılması Naxçıvan ictimaiyyəti, habelə buraya gələn qonaqlar tərəfindən minnətdarlıqla qarşılanır.

Tədbirə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev yekun vurub.

*Dünən Dövlət Bayrağı Günü münasibətilə Naxçıvan Dövlət Universitetində də tədbir keçirilib. Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.*

Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov çıxışında bildirib ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə – 1918-ci il noyabrın 9-da dövlət bayrağı haqqında ilk qərar qəbul edilib. Azərbaycan Respublikasının üçrəngli bayrağı ikinci dəfə 1990-cı il noyabrın 17-də ulu öndərimiz Heydər Əliyevin sədrliyi ilə keçirilən Naxçıvan Ali Məclisinin sessiyasında qaldırılıb.

"Bu gün Azərbaycanda dövlət atributlarına hörmət və ehtiram yüksək səviyyədədir. Bu da ulu öndərin yolunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dövlət rəmzlərinə olan münasibətindən qaynaqlanır. Ölkə Prezidentinin dövlət rəmzlərinə verdiyi yüksək dəyərin nəticəsidir ki, şanlı tariximizdən gələn milli dəyərlərə hörmət və ehtiram Azərbaycan dövlətinin təməl prinsipləri sırasında xüsusi yeri və mövqeyi ilə seçilir". Bu fikirləri Naxçıvan Dövlət Universiteti Gənclər Təşkilatının sədri, Ümumi tarix kafedrasının müəllimi Arzu Abdullayev "Azərbaycan bayrağı dövlətimizin müstəqillik simvoludur" mövzusundakı məruzəsində səsləndirib.

Sonra universitetin İncəsənət fakültəsinin tələbələrinin iştirakı ilə bədii kompozisiya nümayiş etdirilib.

* * *

Naxçıvan Özəl Universitetinin Tələbə-Gənclər Təşkilatının, İdarəetmə və Pedaqoji fakültələrinin birgə təşkilatçılığı ilə 9 Noyabr – Dövlət Bayrağı Günü ilə əlaqədar tədbir keçirilib. Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Universitetin tədris işləri üzrə prorektoru İbrahim Kazımbəyli çıxış edərək bu günün tarixi əhəmiyyətindən danışıb.

Ali təhsil ocağının humanitar işlər üzrə prorektoru Əli Yusifov çıxış edərək ulu öndərin milli mənafelərə əsaslanan siyasətinin bütün sahələrdə uğurla davam etdirildiyini diqqətə çatdırıb, ölkə Prezidenti cənab İlham Əliyevin yüksək vətənpərvərliklə Azərbaycanın milli dövlət atributlarını uca tutduğunu deyib, ölkə başçısının 2007-ci ilin noyabrında Bakıda Dövlət Bayrağı Meydanının yaradılması, 2009-cu ilin noyabrında isə Dövlət Bayrağı Gününün təsis edilməsi haqqında sərəncamlar imzalamasını deyilənlərə bariz nümunə olduğunu vurğulayıb.

Tədbirdə universitetin İdarəetmə fakültəsinin dekanı, dosent Elbrus İsayevin, universitetin müəllimi, tarix üzrə fəlsəfə doktoru Mehman Şabanovun, tələbələrdən Rufinə Tarverdiyeva və Samir Ağayevin çıxışları olub.

Tədbirin bədii hissəsində tələbələrin ifasında bir-birindən maraqlı musiqi nömrələri, bayrağımıza həsr edilmiş şeirlər səsləndirilib, şən hazırcavablar klubunun çıxışı olub, dövlət bayrağı haqqında videoçarx nümayiş etdirilib.

**Xəbərlər şöbəsi**

# Milli varlığımız — üçrəngli bayrağımız

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2009-cu il noyabrın 17-də hər il 9 noyabr tarixinin “Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü” kimi qeyd edilməsi barədə Sərəncam imzalamışdır. Ölkəmizdə dövlət rəmzlərinə hörmət və ehtiramın göstəricisi olaraq hər il noyabrın 9-u möhtəşəm bayram kimi qeyd edilir.***

**Ulu öndər Heydər ƏLİYEV:** ***Azərbaycan bayrağı müstəqil dövlətimizin rəmzidir. Ona görə də gərək hər bir Azərbaycan vətəndaşı, xüsusən gənc nəsil bunu dərk etsin, qiymətləndirsin. Onda bayrağa olan məhəbbət eyni zamanda Vətənə, xalqa, dövlətə olan məhəbbətə bərabər olsun.***

Milli dəyərlər xalqları, millətləri bir-birlərindən fərqləndirən ən üstün keyfiyyətlərdir. Azərbaycan xalqının da özünəməxsus zəngin milli dəyərləri vardır – dilindən, musiqisindən, folklorundan, himnindən, gerbindən, bayrağından tutmuş dünya şöhrətli şəxsiyyətlərinə qədər. Bu mənada Azərbaycan xalqının milli dəyərlərindən ən alisi, müqəddəsi, heç şübhəsiz, üçrəngli bayrağımızdır. O bayraq ki, onun rənglərində xalqımızın müstəqillik amalı, müasirlik ənənəsi, islamçılıq düşüncəsi özünə yer tapıb. O bayraq ki, onun uğrunda qan tökülüb, can verilib, mübarizə aparılıb. O bayraq ki, onun kölgəsi düşən hər bir qarış torpağı özümüzə Vətən bilmişik və onun hər bir dalğasında azadlıq ideyalarımız nümayiş olunur. Xalqımızın milli düşüncəsində bayrağa münasibət tarix boyu özünü qabarıq şəkildə göstərmiş, milli bayraq xalqımızın milli mövcudluq rəmzi sayılmışdır.

Azərbaycan öz müstəqilliyini əldə etdiyi dövrlərdə xalqın milli kimliyinin pasportu hesab edilən dövlət atributları da yaradılmışdır. Azərbaycan xalqı XX əsrdə iki dəfə – 1918-ci il mayın 28-də və 1991-ci il oktyabrın 18-də imperiya əsarətinə qarşı mübarizə nəticəsində milli azadlıq, dövlət müstəqilliyi əldə etmişdir. 1918-ci ildə yaradılan Azərbaycan Xalq Cümhuriyyəti milli dövlətçilik ənənələrinin formalaşması baxımından mühüm rol oynamış və müstəqil dövlətə xas olan atributlar təsis edilmişdir. Azərbaycan Respublikasının Dövlət Bayrağı haqqında qərara əsasən, üzərində ağrəngli aypara və səkkizguşəli ulduz təsvir olunan qırmızı bayraq dövlət bayrağı kimi qəbul edilmişdir. Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 1918-ci il 9 noyabr tarixli Qərarı ilə həmin bayraq üçrəngli – mavi, qırmızı və yaşıl zolaqdan ibarət olan bayraqla əvəz olunmuşdur. Üçrəngli bayraq mütəfəkkir və ziyalı Əli bəy Hüseynzadənin hələ ötən əsrin əvvəllərində milli yaşam fəlsəfəsi kimi irəli sürdüyü “türkləşmək, müasirləşmək, islamlaşmaq” devizinə əsaslanmışdır. Türkləşmək milli ənənələrin dirçəlməsi, milli dilin, ədəbiyyatın, tarix və mədəniyyətin yüksəldilməsi, müasirləşmək müasir elm və texnikanın nailiyyətlərinin öyrənilib nəticələrinin milli elm və mədəniyyətin inkişafına istiqamətləndirilməsi, demokratiya ənənələrindən istifadə edilməsi, islamlaşmaq isə dinimədəni və ümumbəşəri dəyərlərin inkişaf etdirilməsi kimi səciyyələndirilmişdir.

1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyətinin süqut etməsi və Sovet hakimiyyətinin qurulması ilə üçrəngli bayrağımız 70 il səmalarda deyil, xalqın ürəyində dalğalandı. Buna görədir ki, xalqımızın azadlıq, müstəqillik mübarizəsi heç zaman səngimədi. Cümhuriyyət dövründə qazandığı dövlət müstəqilliyinə ötən əsrin sonunda yenidən qovuşan xalqımız öz milli atributlarına hörmət və sadiqliyini bir daha nümayiş etdirdi. 1990-cı il noyabrın 17-də Naxçıvan Ali Sovetinin sessiyasında ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikasının üçrəngli bayrağı ikinci dəfə qaldırıldı. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə həmin sessiyada müstəqil Azərbaycan dövlətçiliyinin bərpası prosesinin həyata keçirilməsi ilə bağlı bir çox məsələlər müzakirə olunmuş, “Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adının dəyişdirilməsi haqqında”, “Naxçıvan Muxtar Respublikası Ali Dövlət hakimiyyəti orqanı haqqında”, “Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında” tarixi qərarlar qəbul edilmişdir. “Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında” Qərara əsasən, müstəqilliyimizin əsas atributlarından olan Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul olunmuşdur.

Bununla əlaqədar ümummilli lider Heydər Əliyevin öz əli ilə yazıb imzaladığı Ali Məclisin Qərarında deyilirdi:

Naxçıvan Muxtar Respublikası Ali Məclisi **qərara alır:**

*1) İlk Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət Bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi təsis edilsin.*

*2) Naxçıvan Muxtar Respublikasının digər dövlət rəmzi – Dövlət Himni və gerbi haqqında məsələ öyrənilib Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə verilsin.*

*3) Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət Bayrağının bütövlükdə Azərbaycan SSR-in dövlət rəmzi kimi təsis edilməsi məsələsi qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan SSR Ali Sovetindən xahiş edilsin.*

Bakıda Dövlət Bayrağı Meydanının açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev həmin dövrdən danışarkən demişdir: ***“Bizim müstəqilliyə gedən yolumuz o gündən başlamışdır. Məhz Xalq Cümhuriyyətinin bayrağının dövlət bayrağı kimi qəbul olunması Azərbaycanı müstəqilliyə daha da yaxınlaşdırmış və ölkəmizdə gedən proseslərə güclü təkan vermişdir”.***

1991-ci il fevral ayının 5-də Azərbaycan Respublikası Ali Soveti Naxçıvan Muxtar Respublikası Ali Məclisinin vəsatətinə baxmış və üçrəngli bayrağın Azərbaycanın Dövlət Bayrağı kimi qəbul edilməsi haqqında qanun qəbul olunmuşdur.

Müstəqilliyimizin rəmzi olan bayrağımız həmişə uca tutulmuş, onun qorunması və mühafizəsi ilə bağlı bir çox qanun və sərəncamlar verilmişdir. Ümummilli liderimiz Heydər Əliyevin 1993-cü ildə Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra dövlət bayrağı da milli suverenliyin simvolu kimi təsdiq olunmuş, Azərbaycan Respublikasının Dövlət Bayrağı haqqında çoxsaylı normativ aktlar qəbul edilmişdir. Ulu öndərimizin 1998-ci il 13 mart tarixli “Azərbaycan Respublikasının dövlət atributlarının təbliği işinin gücləndirilməsi haqqında” Sərəncamı dövlət atributlarının, o cümlədən bayrağımızın təbliği baxımından mühüm əhəmiyyət daşıyır. Azərbaycan Respublikasının 2004-cü il 8 iyun tarixli Qanunu ilə Azərbaycan Respublikası Dövlət Bayrağının istifadəsi qaydaları müəyyənləşdirilmişdir. Bu qanunla dövlət bayrağının qaldırılmalı və yerləşdirilməli olduğu yerlər müəyyən edilmiş, onun rəsmi tədbirlər, matəm günləri və matəm mərasimləri zamanı istifadəsi, həmçinin onun digər bayraqlarla birgə qaldırılması (asılması) və ya yerləşdirilməsi qaydaları təsbit olunmuş, dövlət bayrağının istifadəsinə dair tələblər və məhdudiyyətlər, habelə dövlət bayrağı haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət müəyyənləşdirilmişdir.



Azərbaycanın müstəqilliyinin müqəddəs simvolu olan dövlət bayrağına hörmət və ehtiram, üçrəngli bayrağımıza olan məhəbbət və vətəndaş sevgisi hər bir azərbaycanlının həyat idealına, Vətən qayğısına, millət duyğusuna çevrilmişdir. Ölkə Prezidentinin dövlət rəmzlərinə verdiyi yüksək dəyərin nəticəsidir ki, şanlı tariximizdən gələn milli dəyərlərə hörmət və ehtiram Azərbaycan dövlətinin təməl prinsipləri sırasında xüsusi yeri və mövqeyi ilə seçilir. Türkçülüyü, müasirliyi və islam sivilizasiyasını təcəssüm etdirən bayrağımız müasir dövlətimizin ideoloji modelinin məna və funksiyasını tamamilə ifadə edir, müstəqil Azərbaycan üçrəngli bayrağımız altında müstəqillik yolu ilə inamla irəliləyir, iqtisadi və siyasi gücünü getdikcə artırır.

Müstəqilliyimizin və suverenliyimizin simvolu olan üçrəngli bayrağımızın beynəlxalq təşkilatlara üzv dövlətlərin bayraqları arasında yer alması, bütün beynəlxalq tədbirlərdə dalğalanması dünya arenasında Azərbaycan xalqının mövcudluğunu təsdiq edən ən ali atributdur. Dahi şəxsiyyət, ümummilli liderimiz Heydər Əliyev Azərbaycanın Avropa Şurasına üzv qəbul edilməsi ilə bağlı keçirilən təntənəli mərasimdəki çıxışında milli bayrağımızın çox böyük önəm daşıdığını qeyd edərək demişdir: ***“Bu dəqiqələrdə biz tarixi anlar yaşayırıq. Az sonra Azərbaycanın bayrağı Avropa Şurası sarayının önündə dalğalanacaqdır. Bu bayrağın rənglərindən birinin mənası müasirləşmək, yəni avropalaşmaqdır. Xoşbəxtik ki, hamımızın ümumi səyləri ilə bayrağımız bir daha öz həqiqi mənasına qovuşdu, öz həqiqi yerini tapır”.***

Ötən dövrlər ərzində müstəqilliyimizin simvolu olan dövlət atributlarının təbliği, onların daşıdığı məna və mahiyyətin gənc nəslə aşılanması məqsədilə ardıcıl tədbirlər həyata keçirilmişdir. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 17 noyabr tarixli Sərəncamı ilə Bakı şəhərində Dövlət Bayrağı Meydanı və Dövlət Bayrağı Muzeyi yaradılmışdır. Dünyanın ən hündür bayraq dirəyini öz sinəsində məğrurluqla ucaldan bayraq meydanının tikintisi zamanı bütövlüyümüzün rəmzi olaraq Azərbaycanın bütün rayonlarından gətirilmiş daşlardan istifadə olunmuşdur. 2010-cu il sentyabrın 1-də Dövlət Bayrağı Meydanının təntənəli açılış mərasimində çıxış edən ölkə Prezidenti cənab İlham Əliyev üçrəngli bayrağımızın müstəqil Azərbaycanın simvolu, xalqımızın qürur mənbəyi olduğunu bildirərək demişdir: ***“Bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir. Bu gün Azərbaycanın hər bir yerində dövlət bayrağı dalğalanır. Azərbaycan ərazi bütövlüyünü bərpa edəndən sonra milli dövlət bayrağımız bu gün hələ də işğal altında olan torpaqlarda qaldırılacaqdır. Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaqdır. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq”.***

Paytaxt Bakı şəhəri ilə yanaşı, ölkəmizin digər bölgələrində də yaradılan bayraq meydanları dövlət atributlarımıza olan sevgi və hörmətin göstəricisidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2014-cü il 22 avqust tarixdə imzaladığı “Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyinin yaradılması haqqında” Sərəncam bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Hörmətli Sədrimizin dediyi kimi: ***“Dövlət bayrağı müstəqilliyi təcəssüm etdirir. Ona görə də bayrağa münasibət Azərbaycanda tarix boyu özünü qabarıq şəkildə göstərmiş, xalqın milli mövcudluq simvolu sayılmışdır. Tariximizin ən dəyərli eksponatları sırasında mühüm yer tutan dövlət rəmzləri və bayraqlar Azərbaycanın qədim dövlətlərinin, o cümlədən Naxçıvan xanlığının və muxtar respublikanın tarixini öyrənməyə geniş imkanlar yaradır. Bayraq millətin şərəfi, onun milli varlığının təsdiqidir. Xalqın və dövlətin simvolu olan bayraq hər zaman ucalarda tutulur. Dövlət bayrağına ehtiram göstərilməsi hər bir vətəndaşın müqəddəs borcu, dövlətin suverenliyinə olan sevgi və hörmətinin göstəricisidir”.***

Ali Məclis Sədrinin Sərəncamının icrası istiqamətində ardıcıl tədbirlər görülür. Hələ 2011-ci ilin mart ayından başlayaraq Naxçıvan şəhərinin ən hündür ərazisində Dövlət Bayrağı Meydanının tikintisinə başlanmışdır. Qısa zamanda bayraq meydanında abadlıq işləri görülmüş, bayraq gövdəsinin ətrafında səkkizguşəli, bir salondan ibarət unikal tərtibatda Dövlət Bayrağı Muzeyi tikilmiş, bayraq sütunu ucaldılmış və dövlət bayrağı qaldırılmışdır.

Milli qürurumuzun rəmzi olan üçrəngli bayrağımız hər zaman ucalarda tutulacaq və heç vaxt enməyəcəkdir. Əbədi müstəqilliyimizin simvolu kimi daim uca zirvələrdə dalğalanan bayrağımız milli dəyərimiz, əyilməyən başımız, qürurumuzdur.

Azərbaycan bayrağını müqəddəsləşdirən təkcə onun and yerimiz olması deyil, bayraq həm də dövlətimizin, bütövlükdə, xalqımızın gələcək yolunu müəyyənləşdirən bələdçidir. Milliliyi, dini inancımızı və müasirliyi təcəssüm etdirən bayrağımız azərbaycanlılara öz soykökünü xatırladır, üzərində dalğalanan torpağın qədimliyini göstərir. Bu gün ən yüksək zirvələrdə dalğalanan üçrəngli bayrağımız Azərbaycan dövlətinin gücünü və xalqımızın milli birliyini nümayiş etdirir. Prezident İlham Əliyevin sözləri ilə desək: ***“Bayraq meydanının yaradılması Azərbaycanın gücünü, Azərbaycan xalqının öz dövlətinə sevgisini, dövlət rəmzlərimizə ehtiramımızı göstərir. Bu gün Azərbaycanın hər bir yerində dövlət bayrağı dalğalanır”.***

Artıq neçə ildir ki, hər il 9 noyabr tarixini “Dövlət Bayrağı Günü” kimi qeyd edirik. Naxçıvanlılar isə bu günü ikiqat bayram əhval-ruhiyyəsi və təntənə ilə qeyd edirlər. Ona görə ki, əbədi müstəqilliyimizin təməli qoyularkən onun ən ali simvolu olan üçrəngli bayrağımız da ilk dəfə məhz bu torpaqda qaldırılıb.

***Bu gün ölkəmizin bütün bölgələrində dalğalanan bayraqlar sanki sıralanaraq durna qatarı kimi Qarabağa, Şuşaya, işğal edilən digər torpaqlara sarı qanadlanır, bizi Vətən uğrunda müqəddəs döyüşə haraylayırlar. Vətən və bayraq sevgisi qoşadır. Bu, bütün sevgilərin fövqündə dayanan hissdir. Bayrağımız Vətən adı çəkiləndə səcdəsinə əyildiyimiz müqəddəs varlığımızdır. Onu daim ucalarda tutub, müqəddəsliyinin keşiyində dayanmaq hər birimizin vətəndaşlıq borcudur.***

**“Şərq qapısı”**

# 2001-ci il noyabrın 9-10-da Dünya Azərbaycanlılarının Birinci Qurultayı keçirilmişdir

## Dünya azərbaycanlılarının həmrəyliyi ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır

*Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev bütün fəaliyyəti dövründə digər sahələrlə yanaşı, dünyanın müxtəlif ölkələrindəki soydaşlarımızla əlaqələrin qurulmasına, onların milli həmrəyliyinin təmin olunması məsələsinə də diqqət yetirmiş, bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirmişdir. 1993-cü ilin iyun ayında xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra isə ümummilli liderimiz Heydər Əliyevin səyi nəticəsində istər Azərbaycanda, istərsə də ölkə hüdudlarından kənarda yaşayan soydaşlarımızın vahid ideologiya və milli-mənəvi dəyərlər ətrafında birləşdirilməsinə nail olunmuş, dünya azərbaycanlılarının malik olduqları potensialın ümummilli problemlərin həllinə yönəldilməsi təmin edilmişdir.*

Dünya azərbaycanlılarının həmrəyliyi, onların təşkilatlanması prosesini ulu öndər hələ 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikasının rəhbəri işləyərkən diqqət mərkəzində saxlamışdır. Ümummilli liderimizin rəhbərliyi ilə 1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi tərəfindən "31 Dekabr – Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü haqqında" Qərar qəbul edilmişdir. Qərara əsasən, 1991-ci ilin son günü – 31 dekabrda həmrəylik bayramı ilk dəfə muxtar respublikada kütləvi tədbirlərlə qeyd olunmuşdur. Bayramın bütün dünya azərbaycanlıları tərəfindən birlik, həmrəylik günü kimi hər il böyük təntənə və qürur hissi ilə qeyd edildiyini bildirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***"Dünya azərbaycanlılarının həmrəyliyi və birliyi üçün ulu öndər çox böyük səylər göstərmişdir. Hələ 1991-ci ildə Naxçıvanda onun təşəbbüsü ilə 31 dekabr "Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü" kimi elan edilmişdir".***

Ulu öndərimiz dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılarla çoxşaxəli münasibətlər qurmaq, onları ümummilli mənafelər naminə səfərbər etmək, yaşadıqları ölkələrdə Azərbaycanın tanıdılması istiqamətində sistemli tədbirlərin icrasına başlamaq kimi vəzifələri xarici siyasət xəttində prioritet fəaliyyət istiqaməti kimi müəyyənləşdirmişdir. Ölkənin qüdrətinin yalnız siyasi və iqtisadi resurslarla yox, xaricdə formalaşdırdığı diaspor və lobbiçilik fəaliyyəti ilə də ölçüldüyünü qeyd edən ulu öndərin uzaqgörən siyasəti nəticəsində bu istiqamətdə mühüm tədbirlər həyata keçirilmişdir. Məhz xalqımızın böyük oğlunun təşəbbüsü ilə 2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi milli həmrəyliyin ən yüksək zirvəsi, diaspor quruculuğu sahəsində həlledici mərhələnin başlanğıcı olmuşdur. Qurultayda 36 xarici ölkədə yaşayan həmvətənlərimizin cəmləşdiyi 200-dən çox müxtəlif təşkilatdan 403 nümayəndə və 63 qonaq iştirak etmişdir. Qurultaydakı nitqində dahi rəhbərimiz dünya azərbaycanlıları arasında milli birliyin və həmrəyliyin təmin edilməsi, Azərbaycan dövləti ilə dünya azərbaycanlılarının əlaqələrinin möhkəmləndirilməsi və qarşıya çıxan problemlərin həllində səylərin birləşdirilməsinin vacibliyini vurğulayaraq demişdir: ***"Bizim vəzifəmiz, Azərbaycan dövlətinin vəzifəsi ondan ibarətdir ki, bütün ölkələrdə yaşayan azərbaycanlılara mümkün olan qayğını, diqqəti göstərsin, onların həyatı ilə maraqlansın və dövlətimizlə ayrı-ayrı ölkələrdə olan Azərbaycan icması arasında əlaqələri daha da inkişaf etdirsin. Xaricdə yaşayan azərbaycanlılar isə gərək indi müstəqil Azərbaycan ilə daha sıx əlaqələr qursunlar. Bunlar dünyada olan bütün azərbaycanlıların birliyinin, həmrəyliyinin təmin olunması üçün əsas şərtdir".***

Sonrakı illərdə də dünya azərbaycanlılarının təşkilatlanması istiqamətində mühüm tədbirlər görülmüş, ulu öndər 2002-ci ildə Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması barədə Fərman imzalamışdır. Bu, xaricdə fəaliyyət göstərən Azərbaycan cəmiyyətlərinin, birliklərinin və dərnəklərinin fəaliyyətinin vahid mərkəzdən idarə olunmasına şərait yaratmışdır. 2002-ci il dekabrın 27-də isə "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Qanun qəbul edilmişdir.

Ümummilli liderimiz tərəfindən diaspor quruculuğu sahəsində mühüm qərarların qəbulu dünya azərbaycanlılarının mütəşəkkilliyini təmin etmiş, təşkilatlanmasını sürətləndirmişdir. Dahi şəxsiyyətin dünya azərbaycanlıları tərəfindən böyük nüfuz və etimada malik şəksiz milli lider kimi qəbul edilməsi isə soydaşlarımızın Azərbaycançılıq məfkurəsi ətrafında sıx birləşməsinə şərait yaratmışdır. ***"Azərbaycanlılar! Harada olursan ol, hansı ölkədə yaşayırsan yaşa, ancaq Azərbaycan haqqında, Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü haqqında, Azərbaycan xalqının bu günü və gələcəyi haqqında düşünməlisən",*** – deyən ulu öndər həmrəylik məsələsini milli-mənəvi məsələ kimi irəli sürmüşdür.

Bu gün ulu öndərin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın vahid bir ideologiya ətrafında birləşməsi, ölkəmizin sürətli inkişafında onların rolunun artırılması, Azərbaycanla bağlı həqiqətlərin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması istiqamətində mühüm tədbirlər həyata keçirir. Dövlət başçısının 2006-cı il fevralın 8-də imzaladığı Sərəncama əsasən, həmin il martın 16-da Bakı şəhərində Dünya Azərbaycanlılarının II Qurultayının keçirilməsi diaspor quruculuğu işinə əsaslı töhfə vermişdir. Ölkə başçısının 2008-ci il noyabrın 19-da imzaladığı fərmanla isə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin əsasında Diasporla İş üzrə Dövlət Komitəsi yaradılmış, həmin il dekabrın 19-da Bakıda Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının iclasında Dünya Azərbaycanlılarının Həmrəylik Xartiyası qəbul edilmişdir. Artıq bu dövrdən etibarən dövlətimizin diaspor siyasəti xaricdə yaşayan soydaşlarımızın daha da mütəşəkkil təşkilatlanması nəticəsində yeni mərhələyə qədəm qoymuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamına uyğun olaraq, 2011-ci il iyulun 5-də Bakı şəhərində Dünya Azərbaycanlılarının III Qurultayı keçirilmişdir. Qurultayda dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının nümayəndələri, xarici ölkələrdə yaşayan azərbaycanlı elm, ictimai və mədəniyyət xadimləri, iş adamları iştirak etmişlər. Qurultayda geniş nitq söyləyən Prezident İlham Əliyev onun əhəmiyyətini qeyd edərək demişdir: ***"Xaricdə yaşayan azərbaycanlıların üçüncü qurultayı çox əlamətdar hadisədir. İlk növbədə, ona görə ki, yenə də biz bir yerə yığışdıq. Yenə də həm Azərbaycan xalqına, həm bütün dünyaya göstərdik ki, biz bir yerdəyik. Biz bir xalqıq, biz böyük xalqıq. Bu gün güclənən Azərbaycan bizim qürur mənbəyimizdir".***

Dünya azərbaycanlılarının qurultayları xaricdə yaşayan soydaşlarımız tərəfindən Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, zəngin mədəni irsimizin təbliği, təcavüzkar erməni təxribatlarının qarşısının alınması istiqamətində mühüm rol oynamış, dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların növbəti birlik və həmrəylik bayramına çevrilmişdir.

Bu gün Azərbaycanda dövlət quruculuğu prosesi uğurla davam etdirilir. Ölkəmiz sürətli sosial-iqtisadi inkişaf yoluna qədəm qoymuş, beynəlxalq əlaqələri genişləndirilmiş, xarici siyasətdə mühüm nailiyyətlər qazanılmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə son 11 ildə ölkəmizdə uğurlu infrastruktur layihələri gerçəkləşdirilmiş, bir milyondan artıq yeni iş yeri açılmış, iqtisadiyyatımız 3 dəfə artmış, yoxsulluq dəfələrlə azalmış, büdcəmiz artmış, nəticədə, maaşlar, pensiyalar dəfələrlə qaldırılmış, əhalinin sosial rifah halı xeyli dərəcədə yaxşılaşdırılmışdır. Qazanılan siyasi və iqtisadi uğurlar həm də ölkəmizdən kənarda yaşayan soydaşlarımızın həyatında özünü göstərmiş, onların doğma vətənlərinə bağlılıqlarını artırmışdır. Ölkə başçısının xarici dövlətlərə səfərləri zamanı soydaşlarımızla keçirdiyi görüşlər diaspor təşkilatlarının mütəşəkkil qüvvə kimi təşkilatlanmasında mühüm amil olmuşdur.

*Xaricdə yaşayan soydaşlarımızın Azərbaycançılıq ideologiyası ətrafında sıx birləşməsində, milli diaspor təşkilatlarının yaranmasında və inkişafında dünya azərbaycanlılarının həmrəyliyi və birliyi vacib şərtdir. Dünya azərbaycanlılarının qurultayları məhz bu birliyin təntənəsinə çevrilmişdir. Bu gün harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı öz güc və qüvvəsini Azərbaycan dövlətçiliyi uğrunda səfərbər etməlidir. Ölkə Prezidenti cənab İlham Əliyevin dediyi kimi:* ***"Bizim bir Vətənimiz var – Azərbaycan! Bizim bir dilimiz var – Azərbaycan dili! Bizim ümumxalq ideologiyamız var – Azərbaycançılıq məfkurəsi".***

**"Şərq qapısı"**



## Beynəlxalq miqrasiya hüququ üzrə təlim kursları başa çatıb

Azərbaycanın sürətli sosial-iqtisadi inkişafı, enerji-nəqliyyat sahələrində beynəlxalq kommunikasiyaların genişlənməsi, eyni zamanda ölkəmizin geosiyasi mövqeyi qloballaşma kontekstində miqrasiya proseslərini daha da sürətləndirib. Bir sıra dövlətlərlə vizasız gediş-gəliş rejiminin mövcud olması respublikamızın ərazisindən tranzit qaydada keçən və ya qısa müddətə gələn, üçüncü dövlətlərə getmək istəyən, yaxud qanuni əsaslar olmadan ölkə ərazisində yaşamaq istəyən əcnəbilərin sayının artmasına səbəb olub. Bütün bunlar ölkənin inkişafı və təhlükəsizliyinin təmini baxımından milli maraqlara uyğun miqrasiya siyasətinin həyata keçirilməsi, miqrasiya proseslərinin beynəlxalq hüquq çərçivəsində tənzimlənməsi, dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsi zərurətini yaradıb.

Bu fikirlər Naxçıvan şəhərindəki "Təbriz" otelində Beynəlxalq Miqrasiya Təşkilatı (BMqT) ilə Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin birgə təşkilatçılığı ilə keçilən beynəlxalq miqrasiya hüququ üzrə təlim kurslarında səsləndirildi.

Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin əməkdaşları Namiq Cəfərov və Sədi Bayramov çıxış edərək beynəlxalq miqrasiya hüququ, onun istiqamətləri, subyektləri, miqrasiya proseslərində dövlətlərin səlahiyyətləri, əməkçi miqrantların hüquqları barədə ətraflı məlumat verdilər.

Tədbirdə insan hüquqları, miqrantların xüsusi kateqoriyaları, xüsusi miqrasiya konteksti məsələləri ilə bağlı diskussiyalar aparıldı, verilən suallar cavablandırıldı.

Sonda iştirakçılara sertifikatlar təqdim edildi. Bununla da, beynəlxalq miqrasiya hüququ üzrə təlim kursları yekunlaşdı.

## Dövlət Bayrağı Gününə həsr olunmuş tədbir

*Dünən Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan Dövlət Tarix Muzeyində Dövlət Bayrağı Gününə həsr olunmuş tədbir keçirilib. Tədbiri giriş sözü ilə muzeyin direktoru Nizami Rəhimov açaraq qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasının "Dövlət Bayrağı Gününün təsis edilməsi haqqında" 17 noyabr 2009-cu il tarixli Sərəncamına əsasən, hər il noyabrın 9-u "Dövlət Bayrağı Günü" kimi qeyd olunur.*



Bildirilib ki, Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Dövlət Bayrağı milli suverenliyin simvolu kimi ölkəmizin bütün vətəndaşları üçün müqəddəs dövlətçilik rəmzlərindən birinə çevrilib. Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) yadigarı olan bu bayraq bizim azadlıq məfkurəsinə, milli-mənəvi dəyərlərə və ümumbəşəri ideallara sadiqliyimizi nümayiş etdirir.

Vurğulanıb ki, Azərbaycan Respublikası Konstitusiyasının "Vətəndaşların əsas vəzifələri"nə dair dördüncü fəslində Azərbaycan vətəndaşlarının Vətən, millət, dövlət qarşısında olan vəzifələri sırasında Azərbaycan Respublikasının dövlət rəmzlərinə hörmət etmək vəzifəsi də qoyulub. Konstitusiyanın həmin fəslindəki 75-ci maddəsində göstərilir: "Hər bir vətəndaş Azərbaycan Respublikasının dövlət rəmzlərinə – bayrağına, gerbinə və himninə hörmət etməlidir". Göründüyü kimi, dövlət bayrağına hörmətlə yanaşmaq həm Konstitusiya ilə təsbit olunmuş vəzifəmiz, həm də mənəvi borcumuzdur.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin Gənclərlə iş şöbəsinin aparıcı məsləhətçisi İlahə Haqverdiyeva "Bayrağımız müstəqilliyimizin və dövlətçiliyimizin rəmzidir", Naxçıvan Dövlət Tarix Muzeyinin elmi işçisi Aygün Mürşüdova "Bayrağımız qürur mənbəyimizdir" mövzularında çıxış ediblər.

Sonra Azərbaycan Respublikasının Dövlət Bayrağını tərənnüm edən şeirlər bədii qiraət olunub.

## Şagirdlərin dövlət atributlarımız barədə bilik səviyyəsi yoxlanılıb

***Noyabr ayının 7-də Babək rayonunun Zeynəddin kəndində 9 Noyabr – Dövlət Bayrağı Günü münasibətilə rayonun ümumtəhsil məktəbləri arasında bilik yarışı keçirilib.***

Yarış başlanmazdan əvvəl Babək Rayon Təhsil Şöbəsinin əməkdaşı Nicat Fətullayev, Zeynəddin kənd tam orta məktəbinin tarix müəllimi Limunət Məmmədova, Məmmədrzadizə kənd tam orta məktəbinin tarix müəllimi Zakir Orucov çıxış ediblər.

Bildirilib ki, ən müqəddəs rəmzlərdən olan bayraq millətin varlığının, mövcudluğunun sübutu, müstəqil dövlət qurmaq və ona sahib çıxmaq bacarığının əsas göstəricisidir. Odur ki, özünütəsdiq simvolu olan bayraq qürur və güvənc yeri sayılır. Bayraq həm də dövlətin və xalqın kimliyinin, apardığı azadlıq mücadiləsinin, təfəkkür və düşüncə tərzinin ən real ifadəsidir.

Sonra bilik yarışına start verilib. Yarışın nəticələrinə görə, birinci yeri Kərimbəyli kənd tam orta məktəbinin komandası tutub. Qaraqala kənd tam orta məktəbinin komandası ikinci, Vayxır kənd tam orta məktəbinin komandası isə üçüncü yerə layiq görülüb.

Qaliblər rayon Təhsil Şöbəsinin diplomları ilə təltif olunublar.

**Xəbərlər şöbəsi**

*Ölkəmizdə 10-17 noyabr tarixi hər il "Tələbə-gənclər həftəsi" kimi qeyd edilir.*

*10-17 noyabr beynəlxalq tələbə-gənclər həftəsidir*

# Hər bir ölkənin gələcəyi cəmiyyətin aparıcı qüvvəsi olan gənclərdən asılıdır

Azərbaycanda dövlət gənclər siyasətinin əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuşdur. Ölkəmizə rəhbərliyinin bütün dövrlərində dahi şəxsiyyət sosial-iqtisadi, elmi-mədəni, təhsil və digər sahələrdə gənclərin fəal iştirakının təmin olunmasını diqqət mərkəzində saxlamışdır. Azərbaycan müstəqillik qazandıqdan sonra isə bu sahədə görülən işlər intensiv xarakter almış, zəngin qanunvericilik bazası və gənclər siyasətini həyata keçirən dövlət orqanları yaradılmış, ölkənin ictimai-siyasi həyatında gənclərin yaxından iştirakı üçün lazımi şərait yaradılmışdır. 1999-cu il iyulun 29-da "Dövlət gənclər siyasəti haqqında" Fərman imzalanmış, 2002-ci ildə "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Bundan başqa, "Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında", "Gənc istedadlar üçün xüsusi təqaüdlərin təsis edilməsi haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Azərbaycanın gənc istedadlarına dövlət qayğısı haqqında" qanun, fərman və sərəncamlar imzalanmış, habelə "Gənc ailə", "Ordudan tərxis olunmuş gənclərin məşğulluğu" proqramları qəbul edilmişdir. Ümummilli liderimiz gənc nəslə ölkənin və xalqın gələcək müqəddəratının təminatçıları kimi yanaşaraq demişdir: ***"Siz Azərbaycanın bu günü və gələcəyisiniz. Sizin üzərinizə böyük vəzifə düşür, bu vəzifələr gələcəkdə daha da böyük olacaqdır, siz müstəqil Azərbaycanın XXI əsrdə yaradanlarısınız, quranlarısınız, inkişaf etdirənlərisiniz. Biz müstəqil Azərbaycanın taleyini gələcəkdə sizə etibar edəcəyik, sizə tapşıracağıq".***

Bu gün ümummilli lider Heydər Əliyevin dövlət gənclər siyasətinin inkişafı istiqamətində müəyyənləşdirdiyi siyasi xətt Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı ilə özünün keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Dövlət başçısı gənclərin vətənpərvərlik tərbiyəsinin daha da gücləndirilməsinə, onların məşğulluğunun təmin edilməsinə, sahibkarlıq fəaliyyətlərinə kömək göstərilməsinə, yaradıcı və istedadlı gənclərə, gənc ailələrə dövlət qayğısının artırılmasına, onların mənzil şəraitlərinin yaxşılaşdırılmasına, gənclərin dövlət quruculuğu işlərinə cəlb edilməsinə xüsusi diqqət göstərir. Bu gün ölkəmizdə gənclərlə iş "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu və 20-yə yaxın normativ-hüquqi aktla tənzimlənir. Ötən dövrdə bu sahənin inkişafı ilə bağlı 5 dövlət proqramı qəbul edilmişdir. Ölkə başçısı tərəfindən təsdiq edilən "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı", "Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı", "Azərbaycan Respublikasında texniki-peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı" gənclərin dünyanın nüfuzlu ali məktəblərində təhsil almağa göndərilməsinə, onların yaradıcılıq potensialının üzə çıxarılmasına, intellektual səviyyəsinin yüksəldilməsinə, sosial problemlərinin həllinə mühüm töhfə vermişdir. "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə Dövlət Proqramı" isə ölkəmizdə həyata keçirilən gənclər siyasətinin uğurlu davamı kimi mühüm əhəmiyyətə malikdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev gənclərə göstərilən qayğının vacibliyini vurğulayaraq demişdir: ***"Bugünkü gənc sabah ölkəmizi idarə edəcəkdir. Bugünkü gənclər bir neçə ildən sonra Azərbaycanın bütün idarəetmə sistemində əsas rol oynayacaqlar. Ona görə gəncləri inamla qabağa çəkmək lazımdır, məsul vəzifələrə təyin etmək lazımdır ki, onlar işləsinlər, təcrübə əldə etsinlər və beləliklə, gələcək fəaliyyət üçün hazır olsunlar".***

Gənclər siyasətinin ən vacib istiqamətlərindən olan təhsil və idmanın inkişafı ölkəmizdə daim diqqət mərkəzində saxlanılır. Bu gün Azərbaycanın hər yerində müasir standartlara cavab verən yeni məktəb binaları tikilib istifadəyə verilir, təhsil müəssisələri müasir avadanlıqlarla təmin edilir, idmanın inkişaf etdirilməsi və onun kütləviliyinin artırılması, Azərbaycanın dünyanın qabaqcıl idman ölkələrindən birinə çevrilməsi sahəsində ardıcıl işlər görülür. Bölgələrdə olimpiya-idman komplekslərinin tikilməsi, idmanın kütləviliyinin təmin olunması, ölkəmizin nüfuzlu beynəlxalq idman yarışlarına ev sahibliyi etməsi, idmançılarımızın olimpiada və dünya çempionatlarında uğurlu çıxışları buna əyani sübutdur. Ölkəmizin müxtəlif bölgələrində Gənclər mərkəzlərinin və Gənclər evlərinin inşası da gənclərin asudə vaxtının səmərəli təşkili, onların elmi və yaradıcılıq potensialının üzə çıxarılmasına göstərilən dövlət qayğısını özündə təcəssüm etdirir.

Bu gün dövlət gənclər siyasəti Naxçıvan Muxtar Respublikasında da uğurla həyata keçirilir. Muxtar respublikada gənclər siyasəti üzrə dövlət proqramlarının qəbul edilməsi, gənclərin muxtar respublikamızın ictimai-siyasi, iqtisadi və mədəni həyatında fəal iştirakının təmin olunması və onların sosial problemlərinin həlli diqqət mərkəzindədir. Gənc istedadlara dövlət qayğısının artırılması, elm, təhsil, iqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə gənc kadrların irəli çəkilməsi və onların xidmətlərinin qiymətləndirilməsi artıq muxtar respublikada həyata keçirilən dövlət gənclər siyasətinin əsas tərkib hissəsinə çevrilmişdir.

Bu gün muxtar respublika əhalisinin 63 faizindən çoxunu gənclər təşkil edir. Ona görə də gənclərin potensialından səmərəli istifadə olunması, onların təhsil almasına və əsl vətəndaş kimi yetişməsinə qayğı göstərilməsi aid dövlət orqanları qarşısında prioritet vəzifə kimi qoyulmuşdur. Son illər muxtar respublikada bu sahədə qəbul olunan dövlət proqramları, imzalanan fərman və sərəncamlar mühüm əhəmiyyətə malikdir. Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"nın təsis edilməsi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun yaradılması gənclərə göstərilən diqqət və qayğının daha bir ifadəsidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında gənc istedadlara dövlət qayğısının artırılması haqqında" 2012-ci il 31 yanvar tarixli Fərmanı muxtar respublikamızda gənclərə göstərilən yüksək qayğıdan xəbər verir. Bu istiqamətdə görülən işlərin nəticəsi olaraq, Ali Məclis Sədrinin sərəncamı ilə idman və mədəniyyət sahələrində fərqlənən 4 istedadlı gəncin adı gənc istedadların "Qızıl kitabı"na yazılmış və onlar xüsusi təqaüdə layiq görülmüşlər.

Son illər muxtar respublikada 200-dən çox ümumtəhsil məktəbi, yeni uşaq bağçaları və uşaq musiqi məktəbləri üçün binalar tikilmiş, gənclərin asudə vaxtlarının səmərəli təşkili və onların idmanla məşğul olmalarını təmin etmək məqsədilə olimpiya-idman kompleksləri, üzgüçülük mərkəzləri, şahmat və digər idman növləri üzrə məktəblər, Gənclər Mərkəzi istifadəyə verilmişdir. Gənclərin inkişafı sahəsində görülən işlər sırasında onların elmi potensialının formalaşdırılması, eləcə də mütaliə vərdişlərinin və dünyagörüşünün artırılması da diqqət mərkəzində saxlanılmış, Naxçıvan Muxtar Respublika Kitabxanasında, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzində, Naxçıvan Dövlət Universitetində və Gənclər Mərkəzində elektron kitabxanalar, eləcə də Naxçıvan Regional İnformasiya Mərkəzində məhdud fiziki imkanlılar üçün audio və elektron kitabxana yaradılmışdır.

Müasir dövrdə informasiya texnologiyalarının tətbiqi və sosial şəbəkələrin əhatə dairəsinin getdikcə genişlənməsi gənclər qarşısında yeni fəaliyyət sahəsi açmışdır. Gənclərimiz sosial şəbəkələrdən, əsasən, təbliğat vasitəsi kimi istifadəyə üstünlük verir, öz təcrübə və biliyini səmərəli informasiya mübadiləsinə yönəldir, internet resurslarında ölkəmiz, eləcə də muxtar respublikamız haqqında obyektiv və zəngin məlumat bazası yaradırlar.

Cari ilin ötən dövrü ərzində muxtar respublikada yerli və beynəlxalq yarışlar, turnirlər təşkil edilmiş, gənclər və idman sahəsində iki yüzdən çox tədbir keçirilmiş və bu tədbirlərdə 9 mindən artıq gənc iştirak etmişdir. Keçirilən bu tədbirlər gənclərin Vətənə məhəbbət, dövlətçiliyə sədaqət ruhunda tərbiyəsi, asudə vaxtının səmərəli təşkili istiqamətində mühüm əhəmiyyət daşıyır. Təkcə onu qeyd etmək lazımdır ki, muxtar respublika gəncləri bu il keçirilən idman yarışlarında, ümumilikdə, 45 medal qazanmışdır ki, bunların 29-u Azərbaycan çempionatlarından, 12-si beynəlxalq turnirlərdən, 1-i isə dünya çempionatlarından əldə olunmuşdur.

Muxtar respublikada tələbə-gənclər həftəsi də hər il yüksək səviyyədə qeyd olunur. Bu məqsədlə müvafiq qurumlar tərəfindən tədbirlər planı hazırlanır, ali və orta ixtisas məktəbləri ilə birlikdə silsilə tədbirlər keçirilir. Bu il tələbə-gənclər həftəsi ilə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi tərəfindən tədbirlər planı hazırlamışdır. Tədbirlər planında ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında müxtəlif müsabiqələrin, idman yarışlarının və digər mədəni-kütləvi tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur.

Bu gün Azərbaycan gəncliyi ictimai həyatın bütün sahələrində aktiv fəaliyyəti ilə seçilir, siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində fəal iştirak edir. Gənclərimizin qarşısında idman, elm, mədəniyyət, incəsənət və digər sahələrdə qazanılan nailiyyətlərlə yanaşı, həm də dövlətçilik ənənələrini daim uca tutmaq, ulu öndər Heydər Əliyevin siyasi xəttinə sədaqət ruhunda böyümək kimi müqəddəs vəzifələr durur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Bizim qarşımızda bir vəzifə durur: mənəviyyatca təmiz, intellektli və vətənpərvər gənclər yetişdirmək. Gənclərin bir yolu var. Bu yol ölkə Prezidenti tərəfindən uğurla davam etdirilən Heydər Əliyev yoludur. Hər bir gənc yaradılan yüksək şəraitdən və göstərilən dövlət qayğısından bəhrələnərək Vətəni və xalqı üçün layiqli vətəndaş olmağa çalışmalı, üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməli və ona göstərilən etimadı doğrultmalıdır".***

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədri yanında Gənclər Fondu***

# Naxçıvanşünaslıq Mərkəzində açıq dərslər davam etdirilir

***Dünən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzində Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin I kurs tələbələrinin iştirakı ilə açıq dərs keçilib.***

"Muxtariyyət ili"nə həsr olunmuş açıq dərsdə universitetin müəllimi Həbibə Allahverdiyeva "Naxçıvan milli geyimləri" mövzusunda danışıb. Bildirilib ki, milli geyimlərimiz xalqımızın maddi və mənəvi mədəniyyətinin uzun sürən inkişafı nəticəsində yaranıb. Qədim xalq sənətinin zəngin və örnək nümunələri kimi yaranan parça istehsalı və geyimlərin tikilməsi dekorativ tətbiqi sənətin mühüm bir qolunu təşkil edir. Bu sənət sahələri ilə əcdadlarımız hələ Tunc dövründən məşğul olmağa başlayıb, əyilmə və hörmə şəklində də olsa, tikmə işləri ilə sənət nümunələri yaradıblar. Dövrümüzə qədər gəlib çatmış ən qədim parça nümunələri, təxminən, eramızdan əvvəl II minilliyin sonu və I minilliyin əvvəllərinə aiddir. Arxeoloji qazıntılar nəticəsində əldə edilən nümunələr göstərir ki, uzaq keçmişdə toxunmasına baxmayaraq, bu parçalar müxtəlif bitkilərdən və ağac köklərindən hazırlanmaqla çox əlvan rəngli boyalarla boyanıb.

Qeyd olunub ki, sonrakı dövrlərdə Naxçıvanda ticarət və mədəniyyətin inkişafı burada müxtəlif kişi və qadın geyimlərinin istehsalına imkan verib. Bu geyim nümunələri Naxçıvana yolu düşən əcnəbi səyyahların da nəzərindən qaçmayıb. Belə ki, X əsrdə yaşamış ərəb müəlliflərindən Müqəddəsi və Məsudi yazırlar ki, Azərbaycan sənətkarları satış üçün yun, pambıq, ipək parça və paltarlar hazırlayırdılar. Gəncədə hazırlanmış yun paltarlar, məşhur Naxçıvan çuxaları çox uzaqlarda şöhrət qazanıb. Məşhur türk səyyahı və diplomatı Övliya Çələbi Naxçıvanda yüksəkkeyfiyyətli basma parçaların istehsal olunduğunu və xarici ölkələrə göndərildiyini qeyd edib.

Mühazirəçinin sözlərinə görə, XIX əsrin mənbələrinə əsaslanan etnoqraflar Naxçıvanda əhalinin geyiminin fəsillərə uyğunlaşdırılması qənaətinə gəlməklə yanaşı, yayın qızmar günlərində daha çox ağ rəngli paltarlardan istifadə edildiyini bildirirlər. Bu dövrdə naxçıvanlıların ənənəvi kişi geyim kompleksini müxtəlif üst geyimləri, eyni zamanda baş və ayaq geyimləri təşkil edib. Qadın geyimləri isə, əsasən, tafta, mahud, mitqal, bez, bəyaz qanavuz, darayı, zərbaft, atlas, xara, məxmər, tirmə və sair parçalardan tikilib. Naxçıvanda qadın baş geyimləri isə çaşbənd, ləçək, rübənd, yaylıq, örpək, çalma, kələğayı və digər növlərə ayrılırdı. Bu milli geyimlərin üzərinə salınan bəzək və naxışlar isə xalq sənətinin ən geniş yayılmış növü sayılan tikmə üsulu ilə icra olunub. Naxçıvanda ən geniş yayılmış tikmə növləri isə təkəlduz, saya, güləbətin, pilə, gülmə, muncuqlu, qurama, oturma və sair olub.

Sonra mövzu ilə bağlı tələbələrin sualları cavablandırılıb.

Qeyd edək ki, həmin gün Naxçıvan Dövlət Texniki Kollecinin I kurs tələbələri "Naxçıvan müstəqillik illərində" mövzusunda keçilən açıq dərsdə iştirak edib, hər iki dərsin iştirakçıları sonda mərkəzlə yaxından tanış olublar.

✍ **Səbuhi HƏSƏNOV**

*9 Noyabr – Dövlət Bayrağı Günü münasibətilə Naxçıvan Muxtar Respublika Stadionunda Naxçıvan şəhərindəki ümumtəhsil məktəbləri arasında oğlanlardan ibarət yüngül atletika üzrə şəhər birinciliyi keçirilib.*

# Yüngül atletika üzrə şəhər birinciliyi



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin tədbirlər planına əsasən, Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi ilə Təhsil Şöbəsinin birgə təşkil etdiyi birinciliyin açılış mərasimində çıxış edən Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov yarışın qaydaları barədə məlumat verib. Sonra Naxçıvan Şəhər Təhsil Şöbəsinin nümayəndəsi Ruslan Quliyev iştirakçılara uğurlar arzulayıb.

Reqlamentə əsasən, məktəbli yüngül atletlər 100, 200, 400, 800 və 1500 metr məsafədə güclərini sınayıblar. 80 idmançının mübarizə apardığı birincilikdə, ümumilikdə, 16 komanda çıxış edib. Beynəlxalq atletika qaydalarına uyğun olaraq keçirilən yarışın yekun nəticələrinə əsasən, İsmayıl Haqverdiyev (100 m), Kamil Haqverdiyev (200 m), Əli Tağıyev (400 m), Cavidan Vəliyev (800 m) və Səbuhi Tağıyev (1500 m) birinciliyin qalibi adını qazanıblar.

Komanda hesabında isə 9 nömrəli tam orta məktəb birinciliyin qalibi olub. Digər iki pillədə isə 5 nömrəli tam orta məktəblə 12 nömrəli tam orta məktəb qərarlaşıb.

Sonda qaliblərə Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi və Təhsil Şöbəsinin diplomları təqdim olunub.

✍ **Ceyhun MƏMMƏDOV**

## *Vətəndaşların nəzərinə*

Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti nağdsız ödəmələrin dövriyyəsinin artırılması, vətəndaşların vaxt itkisinin azaldılması və rahatlığının təmin olunması məqsədilə xidmətdə POS-terminal aparatının quraşdırılmasını təmin etmişdir.

Vətəndaşlar xidmətə müraciət edərkən bank mənsubiyyətindən asılı olmayaraq, istənilən plastik kart vasitəsilə xidmət tərəfindən göstərilən müxtəlif növ xidmətlər üçün xidmətin inzibati binasında POS-terminal aparatı ilə ödəniş apara bilərlər.

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səyyar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 939